# Bison 30PQD xarici akkumulyatoru
# İstifadəçi təlimatı

Bison 30PQD xarici akkumulyatorunu aldığınız üçün təşəkkür edirik. Lütfən, istifadə etməzdən əvvəl təlimatla diqqətlə tanış olun.

## Xüsusiyyətləri:

| | |
|---|---|
| Batareyanın həcmi | 30000 mAh |
| Batareyanın tipi | Litium-polimer |
| Giriş gərginliyi, cərəyan gücфü | Micro USB: 5B/2A, 9B/2A, 12B/1.5A<br>USB Type-C: 5B/2A, 9B/2A, 12B/1.5A |
| Çıxış gərginliyi, cərəyan gücü, USBx2 | 5V/3A, 9V/2A, 12V/1.5A, 4.5V/5A, 5V/4.5A |
| Çıxış gərginliyi, cərəyan gücü, Type-C | 5V/2.4A, 9V/2.22A, 12V/1.67A, 4.5V/5A, 5V/4.5A |
| Xarici korpus | plastik |
| Ölçüləri, mm | 144 x 69 x 40 mm |
| Çəkisi, q | 596 q |
| Xarici akkumulyatorun enerji yığma müddəti | 13-14 saat |

## Komplektasiya

1. Xarici akkumulyator – 1 ədəd
2. Təlimat – 1 ədəd
3. USB Type-C kabel – 1 ədəd

## Xarici görünüşü




| Nömrə | Adı | Təsviri |
|---|---|---|
| 1 | Yandırma düyməsi | Xarici akkumulyatoru yandırmaq üçün basın |
| 2 | Ekran | Xarici batareyanın doldurma səviyyəsini göstərir |
| 3 | Micro USB giriş | Xarici qidalanma (enerji) mənbəyindən xarici akkumulyatora enerji yığmaq üçün konnektor |
| 4 | USB Type-C giriş | Xarici qidalanma (enerji) mənbəyindən xarici akkumulyatora enerji yığmaq üçün konnektor |
| 5 | USB Çıxış 1 | Xarici akkumulyatordan qurğulara enerji yığmaq üçün konnektor |
| 6 | USB Çıxış 2 | Xarici akkumulyatordan qurğulara enerji yığmaq üçün konnektor |

## Xarici akkumulyatora enerjinin yığılması

Enerji yığma kabelinin bir ucunu qidalanma (enerji) mənbəyinə: adapterə* yaxud kompüterin USB portuna, digər ucunu isə xarici akkumulyatorun giriş portuna birləşdirin:



*Qeyd: qidalanma adapteri komplektə daxil deyil və ayrı alınır.*

## Xarici akkumulyatordan qurğulara enerjinin yığılması

Xarici akkumulyatordan Qurğularınıza enerji yığmaq üçün yalnız orijinal kabeldən istifadə edin. Enerji yığmaya başlamaq üçün xarici akkumulyatoru yandırmaq tələb olunur. Enerji yığma prosesi indikatorların köməyi ilə təsvir olunur. Enerji yığma kabelinin bir ucunu xarici akkumulyatorun çıxış portun, digər ucunu Qurğunuzun (Apple yaxud Andoid) giriş portuna birləşdirin:



## Xarici akkumulyatorun yandırılması və söndürülməsi

Xarici akkumulyatoru yandırmaq üçün, qidalanma düyməsinə basın və ya Qurğunuzu xarici akkumulyatora qoşun. Xarici akkumulyatoru söndürmək üçün qidalanma düyməsini basın və üç saniyə saxlayın.

## Akkumulyatorun enerji yığma səviyyəsinin göstərilməsi

Xarici batareyanın doldurulmasını göstərmək üçün cihazın maksimum şarj tutumunun faizini göstərən bir ekranla təchiz edilmişdir.

**Diqqət:** Enerji səviyyəsi 25%-dən az olduqda xarici akkumulyatoru enerji yığmağa qoyun. Akkumulyator tam enerji yığdıqda, dörd indikatorun hamısı yanıq vəziyyətdə qalacaqdır. Akkumulyator artıq enerji yığmadan müdafiə olunur. Müdafiə həddən artıq enerji yığma, dərin boşalma, cərəyan üzrə həddən artıq yüklənmə, qısa qapanma təhlükəsi zamanı işə düşür.

İşçi temperatur –2°C –dən 40°C-yə kimi; saxlama temperaturu –10°C –dən 45°C-yə kimidir.

### Enerji yığma qurğusunun qoşulma/ayırma indikasiyası

İndikasiya, xarici akkumulyatora digər qurğu qoşulduqda, avtomatik yanır. Qurğu ayırıldıqdan beş saniyə sonra, digər qurğu qoşulmazsa, indikasiya sönür.

Əgər xarici akkumulyator düymələrə basılmasına və ya digər qurğulara qoşulmaya reaksiya vermirsə, onu enerji yığması üçün qoymaq lazımdır.

**Təhlükəsizlik üzrə qeydlər:**

Bu qurğunun qidalanması xüsusi akkumulyatordan baş verir. Onu təyinatı üzrə istifadə edilməməsi alışma, partlayış, həmçinin digər fövqəladə halların əmələ gəlmə təhlükəsini yaradır. Lütfən, akkumulyatoru lazımi sürətdə istifadə edin.

Akkumulyatoru sökmək, açmaq, əymək, deşmək, mexaniki təsirə məruz etmək və mayeyə salmaq qadağandır. Akkumulyator zədələndiyində partlaya bilər. Akkumulyatordan elektrolit axdığı halda dərhal zədələnmiş sahəni təmiz su ilə yuyun və həkim yardımına müraciət edin. Batareyadan qəribə iy gəldiyi halda onu dərhal təhlükəsiz, açıq oddan uzaq olan yerə yerləşdirin. Zədələnmiş akkumulyatorun istifadəsi ciddi travmalara gətirə bilər.

**Udmaq olmaz!**

**Uşaqlardan qoruyun!**

Tam şarj edilmiş akkumulyatoru şarj qurğusuna qoşulmuş halda saxlamayın. Bu xidmət müddətini qısalda bilər. İstifadə etmədiyiniz zaman akkumulyatorun enerjisi qurtarır.

Qurğunu sökməyin, qısa qapanmaya yol verməyin. Akkumulyatorların metaldan olan kontaktlarının təmizliyinə baxın.

Qurğunu avtomobildə isti gündə günəş şüaları altında qoymayın və saxlamayın. Bu akkumulyatorun qızmasına gətirə bilər, bu isə öz növbəsində batareyanın qüvvədə olma müddətini qısaldır. İş temperatur normalarını pozaraq istifadə edilən zaman (-10°C-dən aşağı və 45°C-dən yüksək) qurğu sönə bilər və ya tutum tam istifadə olunmayacaqdır.

Akkumulyatorun tərkibində civə, kadmuim və qurğuşun kimi toksik ağır metallar vardır.

İstifadə olunmuş akkumulyator lazımi qaydada utilizasiyaya etmək lazımdır. Torpağa, süxur və səthi sulara ağır metalların yuyulmaması üçün akkumulyatoru məişət tullantılarından ayrıca utilizasiya edin

Ağır metalların havaya keçməməsi və onların tüstüdə və küldə toplanmaması üçün akkumulyatoru yandırmayın.

Təbii mənbələrin qorunması üçün akkumulyatoru digər zibildən ayırın və ona yenidən emal etməyə verin.

Məhsulun nəql edilməsi istənilən məsafələrə bütün nəqliyyat növləri ilə müəssisə-istehsalçının tarasında həyata keçirilir.

**AccesStyle ticarət markasının məmulatlarının zəmanət şərtləri**.

1. Bütün aşağıda şərh olunan zəmanət şərtləri, istehlak malları ilə ticarəti tənzimləyən Rusiya Federasiyasının qüvvədə olan qanunvericiliyi çərçivəsində qüvvədədir.
2. Məmulatın zəmanət müddəti ilk satınalma anından etibarən başlayır və 1 (bir) il təşkil edir.
3. Məmulatın xidmət müddəti 2 (iki) il təşkil edir və satınalma tarixindən etibarən və o olmadığı halda istehsal tarixindən etibarən hesablanır;
4. Zəmanət aşağıdakılara şamil edilmir:
   - 4.1. Kabellər, adapterlər, müxtəlif tipli məlumat daşıyıcıları (disklər, yazılmış proqram təminatı ilə yaddaş kartları), çexollar, daşımaq üçün şnurlar, klipsalar, müxtəlif tipli tutqaclar, qablama və sənədlər.
   - 4.2. Məmulatın normal köhnəlməsi və ya xarici səthlərinin zədələnməsi.
   - 4.3. Nəmişlik, rütubət, ekstremal temperatura, YTŞ enerjisi, hərarət, zərbə, həşarətlərin, heyvanların hərəkətləri, mayenin, yeməyin, tozun, kimyəvi preparatların düşməsi ilə əmələ gəlmiş qüsurlar .

4.4. Təmirə və ya 5-ci bənddə göstərilənlərdən başqa digər şəxslər tərəfindən modifkasiyaya məruz qalmış məmulat.
4.5. Birbaşa təyinatı ilə istifadə olunmayan, həmçinin istifadəçinin rəhbərliyində şərh olunmuş istismar qaydalarının pozulması ilə istifadə olunan məmulat.
4.6. Uyğun gəlməyən avadanlığın və ya aksessuarların istifadə edilməsi ilə əmələ gəlmiş qüsurlar.

5. Zəmanət xidməti buna səlahiyyətləndirilmiş təşkilatlar – avtorizasiya olunmuş servis mərkəzləri tərəfindən yerinə yetirilir, hansıların siyahısı ilə http://www.accesstyle.ruveb-saytın səhifəsində və 8-800-250-07-17 telefonla tanış olmaq olar. Zəmanət müddəti ərzində istehsalat xarakterli çatışmamazlıqların aradan qaldırılması, doldurulmuş zəmanət talonunun əsli və/və ya satınalma faktını və tarixini təsdiq edən sənədlər (kassa qəbzi) təqdim olunduğu zaman alıcı üçün pulsuz həyata keçirilir. Sənədlərin tərkibində məmulatın modelinin adı, satış tarixi, ticarət təşkilatın rekvizitləri olmalıdır. Göstərilən sənədlər olmadığı halda səlahiyyətləndirilmiş təşkilat zəmanət xidmətindən imtina etmək hüququna malikdir.
6. Zəmanət müddəti xidmət müddətinə uzadılır. Aparat təminatının, tərkib hissələrinin və məmulatın bütün komplektinin əvəz edilməsi, bütün məmulata və əvəz edilmiş hissələrə yeni zəmanət müddətlərin müəyyən edilməsinə gətirmir.
7. Heç bir halda İstehsalçı, İdxalatçı və onlar tərəfindən səlahiyyətləndirilmiş təşkilatlar hər hansı bir xüsusi, təsadüfi, birbaşa və ya vasitəli zərərə və ya ziyana, sadalanlar daxil olmaqla, lakin istisna olmamaqla, əldən buraxılmış mənfəətə, itkiyə və ya məlumatdan və ya verilərdən istifadə etmək imkanın olmamasına, məlumatın və ya verilərin bərpa edilməsi üzrə xərclərə, AccesStyle məmulatın istifadə edilməsi və ya istifadə etmək imkanın olmaması ilə əlaqədar əmələ gələn, kommersiya, istehsalat və ya digər fəaliyyətdə fasilələrlə əmələ gələn zərərlərə görə məsuliyyət daşımırlar.

## Zəmanət talonu

Məmulatı alan zaman Sizin iştirakınızla onun yoxlanılmasını və zəmanət talonunun doldurulmasını tələb edin. Həmin talonu təqdim etmədən və ya onu düzgün doldurmayan zaman keyfiyyət üzrə iradlar qəbul olunmur və zəmanət xidməti həyata keçirlmir.

Məmulatın adı: ______________________________

Zavod nömrəsi: ______________________________

Satış tarixi: ______________________________

Satıcının imzası: ______________________________

Ticarət təşkilatın adı ______________________________
və ünvanı: ______________________________

**Satıcının**
**M.Y.**

Məmulatın keyfiyyətinin yoxlanılması mənim iştirakımla həyata keçirilib, iradım yoxdur. Məmulatı tam dəsti ilə istifadəçinin rəhbərliyi ilə birgə aldım; zəmanət şərtləri ilə tanış oldum və razıyam.

İstehlakçının imzası: ______________________________